UOT-338

*Yusif Qəşəm oğlu ABAYEV*
*AMEA-nın İqtisadiyyat İnstitutunun dissertantı*

# AQRAR EMAL FƏALİYYƏTİNİN MAHİYYƏTİ, AQRAR İSTEHSAL VƏ EMAL SUBYEKTLƏRİNİN QARŞILIQLI MÜNASİBƏTLƏRİ

*Xülasə*

Müasir aqrar emal fəaliyyəti çoxsaylı və qarşılıqlı əlaqəli mürəkkəb sistem əmələ gətirir. Aqrar istehsal və emal müəssisələrinin münasibətlərinin yaxşılaşdırılması sonuncuların fəaliyyətinin səmərəliliyində mühüm rola malikdir.

**Tədqiqatın məqsədi** – aqrar emal fəaliyyətinin mahiyyətinin açıqlanması, aqrar-emal və istehsal fəaliyyəti subyektləri arasında münasibətlərdəki ziddiyyətlərin səbəblərinin aşkar edilməsidir.

**Tədqiqatın metodologiyası** – tədqiqat prosesində müşahidə, müqayisəli təhlil, sintez, abstraksiya və məntiqi ümumiləşdirmə üsullarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – əldə edilən nəticələr aqrar emal müəssisələrinin səmərəli fəaliyyətinin təmin edilməsi, aqrar istehsal və emal subyektlərinin qarşılıqlı münasibətlərinin yaxşılaşdırılması tədbirlərinin hazırlanması və icrası zamanı istifadə oluna bilər.

**Tədqiqatın nəticələri** – aqrar emal sisteminin mahiyyətinə aydınlıq gətirilmiş, aqrar-emal və istehsal fəaliyyəti subyektləri arasında münasibətləri şərtləndirən əsas amillər xarakterizə edilmiş, həmin münasibətlərdəki ziddiyyətlərin səbəbləri göstərilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – aqrar emal prosesinin iqtisadi mahiyyəti səciyyələndirilmiş, aqrar istehsal və emal müəssisələrinin münasibətlərindəki ziddiyyətlərin aradan qaldırılması yolları göstərilmişdir.

***Açar sözlər: aqrar-emal müəssisələri, münasibətlər, yerli istehsal, innovasiya, logistika, rəqəmsallaşma, tənzimləmə.***

## *Giriş*

Aqrar emal fəaliyyəti logistik axınlarla bir-birinə bağlı, çoxsaylı sahələri və altkompleksləri birləşdirən mürəkkəb sistem əmələ gətirir. Bu sistemdə emal müəssisələrnin mühüm tərəfdaşları qismində, ilk növbədə kənd təsərrüfatı məhsulu istehsalçıları qeyd edilməlidir. Aqrar emal müəssisələri məhsullarının bazarın müvafiq seqmentində mövqeyi, həlledici dərəcədə onların aqrar istehsal subyektləri ilə qarşılıqlı münasibətlərinin xarakteri və səviyyəsindən asılıdır. Haqqında danışılan tərəfdaşların münasibətlərində ciddi ziddiyyətlər vardır və onlar həlli vacib olan məsələlərdir. Sivil bazar münasibətləri şəraitində innovasiyalı inkişaf, rəqəmsal texnologiyalar, səmərəli marketinq fəaliyyəti, mükəmməl logistik sistemlər və s. kimi amillərin aqrar-emal və istehsal fəaliyyəti subyektləri arasında münasibətlərin yaxşılaşdırılmasında yeri və rolu kifayət qədər araşdırılmamışdır. Odur ki, aqrar-emal və istehsal fəaliyyəti subyektləri arasında münasibətlərin yaxşılaşdırılması məsələləri aktualdır.

### Aqrar emal fəaliyyətinin mahiyyəti və xüsusiyyətləri

Hazırda milli iqtisadiyyatın aparıcı sahəsi kimi kənd təsərrüfatının özünəməxsus cəhətləri, o cümlədən təbii-iqlim şəraitindən güclü asılılığı, yüksək riskliliyi, istehsal məkanının pərakəndəliyi, istehsalın mövsümi xarakteri, əksər məhsulların təbii şəraitdə uzun müddət saxlanmasının, uzaq məsafəyə daşınmasının çətinliyi və bəzi hallarda qeyri-mümkünlüyü, əmək və istehsal proseslərinin zaman etibarı ilə üst-üstə düşməməsi və s. qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə ciddi məhdudiyyətlər qoyur. Aqrar emal fəaliyyətinin mahiyyəti və funksiyalarının tədqiqində bu fəaliyyət subyektlərinin aqrar istehsalın inkişafında yeri və roluna münasibət mühüm istiqamət hesab edilir.

Aqrar emal müəssisələri tərəfindən kənd təsərrüfatı mənşəli yerli xammaldan istifadəyə üstünlük verilməsi ərzaq təhlükəsizliyi meyarlarına uyğun olmaqla, daxili aqrar istehsalın və kənd

ərazilərinin dayanıqlı inkişafı baxımından mühüm istiqamətdir. Eyni zamanda, unutmaq olmaz ki, aqrar emal müəssisələrinin kənd təsərrüfatı mənşəli yerli xammala üstünlük verməsi inzibati qaydada təmin edilə bilməz. Əks halda, emal müəssisələrinin rəqabət qabiliyyəti üçün ciddi təhdid yarana bilər. Başqa sözlə, yerli xammaldan istifadə aqrar emal müəssisələri üçün iqtisadi cəhətdən sərfəli olmalıdır. Bu məsələnin həlli kompleks yanaşma tələb edir. Başlıca istiqamət yerli aqrar istehsal və emal subyektlərinin rəqabət qabiliyyətinin yüksəldilməsi kimi mürəkkəb bir problemin öz həllini tapmasıdır. Bu məqsədlə aşağıdakı işlərin görülməsi məqsədəuyğundur: resurs təminatının yaxşılaşdırılması, maliyyəyə çıxışın asanlaşdırılması və etibarlı zəmanət (o cümlədən, sığorta) sisteminin yaradılması [1, s. 363-390]; infrastrukturun və logistika şəbəkəsinin innovasiyalı modernləşdirilməsi; korporativ idarəetmə sisteminin təkmilləşdirilməsi; texnoloji innovasiyaların tətbiqinin və texnoloji transferlərin dəstəklənməsi; yerli məhsulların satışı üzrə çoxkanallı innovativ sistemin yaradılması və təşviqi; yerli məhsullarını satışına mane olan səbəblərin aradan qaldırılması, o cümlədən, aqrar emal sənayesində və ticarətdə inhisar cəhdlərinin qarşısının alınması, bu baxımdan əlverişli kredit, vergi və gömrük sisteminin yaradılması; operativ informasiya dəstəyinin göstərilməsi [2, s.384-386]; yerli kənd təsərrüfatı məhsulları istehsalçılarına dəstək tədbirlərində yerli idarəetmə orqanlarının iştirakının təmin edilməsi; keyfiyyətsiz idxal məhsullarının daxili bazara girişinin qarşısının alınması, o cümlədən qida təhlükəsizliyi və keyfiyyətə nəzarət üzrə hüquqi bazanın və iqtisadi mexanizmin möhkəmləndirilməsi [3, s. 93-109]; dempinq qiymətləri ilə idxalın qarşısının alınması; ölkə vətəndaşlarına ərzaq yardımı proqramlarının yerli istehsal məhsulları hesabına həyata keçirilməsi; dövlət ehtiyacları üçün yerli məhsulların satın alınmasına üstünlük verilməsi.

Digər istiqamət aqrar emal müəssisələri və yerli kənd təsərrüfatı məhsulları istehsalçıları arasında ziddiyyətlərin həll edilməsidir. Həmin ziddiyyətlərin əsasında, ilk növbədə konkret ərazidə eyni profilli xırda aqrar istehsalçıların sayının çox, emal müəssisələrinin isə az olması durur. Belə vəziyyət aqrar istehsal və emal müəssisələrinin bərabər hüquqlu qarşılıqlı münasibətlərinə ciddi təhdidlər əmələ gətirir və emal müəssisələri tərəfindən inhisarçılıq meyillərinə rəvac verir [4]. Başqa səbəb aqrar istehsalçıların zəif təşkilatlanması, emal müəssisələrinin onlarla assosiasiyalar yaratmaq cəhdlərinin əməli nəticə verməməsidir. Yerli istehsal məhsullarının emal üzrə müasir texnoloji xətlərin tələblərinə və digər standartlara cavab verməməsi də aqrar emal müəssisələri və yerli kənd təsərrüfatı məhsulları istehsalçıları arasında ziddiyyət yaradır. İnnovasiyalara, xüsusilə texnoloji innovasiyalara həssaslıq səviyyələrində aqrar istehsalçıların xeyrinə olmayan ciddi fərqlər də haqqında danışdığımız münasibətlərdə ziddiyyətləri kəskinləşdirə bilər.

Yeri gəlmişkən, rəqəmsal mühitin imkanlarından istifadə etməklə yerli aqrar istehsalçıların qısa bir müddətdə innovasiyalı fəaliyyətdən ciddi müsbət nəticələr əldə etmək təcrübəsi vardır [5, s.15-17].

Məlum olduğu kimi, aqrar istehsal məhsullarının emalı və saxlanması üzrə hazırda tətbiq edilən texnologiyalar saxlama və daşınma müddətini (məsafəsini) əhəmiyyətli dərəcədə artırmağa və beləliklə də aqrar istehsal subyektlərinin davamlı fəaliyyətinə şərait yaradır. Aşağıdakı mənbədə göstərildiyi kimi “ərzaq məhsullarının müasir saxlama texnologiyaları onları uzaq ölkələrə daşımağa və illərlə saxlamağa imkan verir. Anbar təsərrüfatının və ümumilikdə logistik sistemin təkmilləşdirilməsi aqrar emal fəaliyyətinin inkişaf perspektivlərini, habelə fermer təsərrüfatlarının həyat qabiliyyətini şərtləndirən vacib amildir” [6]. Başqa sözlə, aqrar emal sənayesi müəssisələri kənd təsərrüfatı istehsalçılarının davamlı fəaliyyətində və ərzaq təhlükəsizliyinin təminatında həlledici rol oynayır.

**Aqrar istehsal və emal subyektlərinin qarşılıqlı münasibətləri**

Aqrar istehsal və emal sahələrinin inkişafı onların qarşılıqlı əlaqələrinin xarakteri və dinamikası ilə sıx bağlıdır. Aqrar sənaye inteqrasiyasının mühüm vektoru kimi aqrar və aqrar emal müəssisələrinin qarşılıqlı münasibətlərinin inkişafı və milli ərzaq təhlükəsizliyinin təminatı, habelə əhalinin aqrar emal məhsullarına tələbatının ödənilməsi arasında kifayət qədər sıx əlaqə vardır.

Aqrar istehsal və emal müəssisələrinin qarşılıqlı münasibətlərinin xarakterik cəhətlərinin araşdırılmasına həsr olunmuş bir çox tədqiqatlarda keçid dövrü problemlərinə daha çox diqqət verilmişdir [7; 8]. Sivil bazar şəraitində haqqında danışılan münasibətləri kifayət qədər fərqli mühitdə qurulur və inkişaf edir. İlkin yanaşmada həmin inkişaf prosesinin iqtisadi - institusional xarakteristikasına və ümumilikdə aqrar emal sənayesinin inkişafı problemlərinə həsr olunmuş tədqiqatlarda mühüm elmi və təcrübi əhəmiyyətli müddəa və nəticələr vardır [9].

Aqrar istehsal və emal subyektlərinin faktiki qarşılıqlı əlaqəli fəaliyyət modellərinə gəldikdə isə, onu deyə bilərik ki, mövcud tədqiqatlarda münasibətlərin iki vektoruna kifayət qədər diqqət verilməmişdir [10, s. 17-22]. Onlardan, birincisi aqrar-emal müəssisələrinin daxilindəki iqtisadi münasibətlər, ikincisi isə həmin müəssisələrlə dövlət arasındakı münasibətlərdir. Halbuki, aqrar emal fəaliyyəti subyektlərində istehsalın təşkilinin sosial - iqtisadi aspektləri və dövlət strukturları ilə əlaqələrin xarakteri hərtərəfli tədqiq edilmədən, aqrar istehsal və emal müəssisələrinin qarşılıqlı münasibətlərini yaxşılaşdırmaq və nəticə etibarı ilə optimallaşdırmaq qeyri-mümkündür.

İqtisadi və institusional islahatların dərinləşdiyi və müvafiq normativ-hüquqi bazanın təkmilləşdirildiyi hazırkı dövrdə aqrar istehsal və emal müəssisələrinin qarşılıqlı iqtisadi münasibətlərinin mahiyyəti, mövsud vəziyyəti, səmərəliliyi və inkişaf imkanlarının hərtərəfli tədqiqinə ehtiyac hiss olunur. Həmin araşdırmaların mühüm istiqamətlərinə, ilk növbədə aqrar istehsal və emal müəssisələri arasında ziddiyyətlərin aradan qaldırılması məqsədi ilə gəlirlərin bölgüsü mexanizminin kənd təsərrüfatının və kənd yerlərinin dayanıqlı inkişafı tələbləri baxımından [11, s. 37-40] təkmilləşdirilməsi aid edilə bilər. Bu məqsədlə aqrar emal sənayesində qiymət siyasətinin prioritetləri daim diqqət mərkəzindədir və mütəmadi olaraq onlara yenidən baxılması zərurəti yaranır. Aqrar istehsal və emal müəssisələrinin qarşılıqlı əlaqəli inkişafında onların son məqsədə nail olmaq baxımından birgə fəaliyyəti - qiymətəmələgəlmə prosesində hər iki tərəfin maraqlarını təmin etməsi, qida və digər aqrar emal müəssisələrinin məhsul buraxılışının kəmiyyət və keyfiyyət baxımından zəruri tələblərə cavab verməsi halında daha səmərəlidir.

Rəqəmsallaşma proseslərinin gündən-günə intensivləşməsi rəqəmsal aqrar istehsal və emal müəssisələri arasında “informasiya bərabərsizliyi”ni artırır. Bu isə həmin müəssisələr arasında bərabər hüquqlu münasibətlərin təşəkkülü və inkişafına mane olur. Əsasən, qlobal şəbəkə (internet) resurslarına və informasiya-kommunikasiya texnologiyalarına əlyetərlikdə fərqlər kimi qəbul edilən “informasiya bərabərsizliyi”nin aradan qaldırılması, ilkin yanaşmada kənd təsərrüfatı istehsalı və istehsalçılarının texnoloji, o cümlədən rəqəmsal texnoloji səviyyəsinin artırılması sayəsində mümkündür. Aqrar emal fəaliyyətində aqrotexnoloji potensialdan səmərəli istifadə, texnoloji innovasiyalara həssaslığın optimal idarə edilməsi, rəqəmsallaşma proseslərinin təşəkkül xronologiyasından asılılığının azaldılması, rəqəmsal aqrar istehsal və emal fəaliyyətində motivləşdirmənin gücləndirilməsi, miqyas effektinin gerçəkləşdirilməsi imkanlarının nəzərə alınması onun perspektivləri baxımından mühüm əhəmiyyətə malikdir.

Rəqəmsal mühit aqrar iqtisadiyyatın inkişafında ciddi təsir imkanlarına malikdir. Sahənin mühafizəkarlığı aqrar emal fəaliyyətində innovasiyalara həssaslıq səviyyəsinə təsirsiz qalmır. Həmin təsirin yumşaldılması və imkan daxilində aradan qaldırılmasında texnologiyalardan, o cümlədən rəqəmsal texnologiyalardan fəal və geniş istifadə təcrübəsi özünü doğruldur.

Aqrar istehsal və emal subyektlərinin qarşılıqlı münasibətlərinin səmərəliliyi ərzaq və qida təhlükəsizliyi meyarlarına uyğun olaraq rəqəmsal mühitdə qida və digər aqrar emal məhsullarının son istehlakçıya doğru hərəkətində tədarük zəncirinin səmərəli və ahəngdar fəaliyyətinin təmin edilməsindən bilavasitə asılıdır. Rəqəmsallaşma mühitinin üstünlüklərindən istifadə aqrobiznesin genişlənməsi, böyük verilənlər, maşın təlimi, “ağıllı” kənd təsərrüfatı konsepsiyasını dəstəkləyən marketinq fəaliyyətinin təkmilləşdirilməsi imkanlarını genişləndirir. Həmin imkanların reallaşdırılması alqoritmlərinə həsr olunmuş tədqiqatların nəticələri [12] göstərir ki, müvafiq istiqamətlərdə ciddi müsbət effekt əldə etmək mümkündür. Haqqında danışılan gözləntilər qabaqcıl təcrübənin ilkin nəticələrinə və rəqəmsal transformasiyaların real imkanlarına əsaslanır.

Aqrar emal məhsullarının tədarük zəncirində ətraf mühitin mühafizəsi səviyyəsinin yüksəldilməsi və məhsulun yeridilişi zamanı kəmiyyət və keyfiyyət itkilərinin minimumlaşdırılması kifayət qədər aktual məsələlərdir. Həmin məsələlərin həlli, onların aqrar siyasət prioritetlərinə uyğunluğu dərəcəsi ilə bağlıdır. Bu səbəbdən aşağıdakı mənbədə "kənd ərazilərinin və kənd təsərrüfatının dayanıqlı inkişafı məsələlərinə aqrar siyasət və aqrar ekologiya meyarları ilə yanaşma imkanları araşdırılmışdır" [13]. Tədqiqatçılar belə bir qənaətə gəlmişlər ki, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında dayanıqlı inkişafın, o cümlədən ekoloji aqrar istehsalın tələblərinə riayət edilməsi nəticə etibarı ilə müsbət nəticələnəcəkdir.

Aqrar emal sənayesi müəssisələrinin fəaliyyətinin səmərəliliyi baxımından marketinq və logistik sistemlərdə transaksiya və digər xərclərin aşağı salınması əhəmiyyətli amildir. Həmin tədqiqatlarda nəzərə alınır ki, aqrar sahənin məhsullarının saxlanması və emalı qida məhsullarının insanlar üçün il boyu əlyetən olmasında həyati vacib rola malikdir. Transaksiya xərclərinin dinamikasına münasibətdə onu qeyd edək ki, bu xərclər, müvafiq mənbələrdə daha çox "tərəf-müqabillərlə qarşılıqlı münasibətlərin səmərəliliyinə mane olan amillərin aradan qaldırılmasına sərf olunur. Bu xərclər natamam informasiya mühitində meydana gəlir. İlkin yanaşmada, transaksiya xərcləri bazarın fəaliyyəti üçün zəruri olan xərclər kimi qəbul edilmişdir" [14, s. 222]. Konkret halda aqrar emal məhsulları bazarının öyrənilməsi və məhsulların satışının genişləndirilməsi məqsədi ilə istehlakçı tələbatına əhəmiyyətli təsir göstərə bilən tədbirlər kompleksi kimi marketinq sisteminin inkişafı, istehlakçılara fərdi yanaşmanın perspektivlərini genişləndirə bilər. Həmin perspektivlər isə böyük ehtimalla transaksiya xərclərinin dinamikası ilə bağlı olacaqdır.

Aqrar-sənaye istehsalının logistik axınlarla bir-birinə bağlı olan çoxsaylı altkompleksləri, sahələri birləşdirən mürəkkəb sistem olduğu fikri ilə razılaşmamaq çətindir. Belə bir mövqe, zənnimizcə, maraq doğurur ki, "kənd təsərrüfatı mənşəli xammalın emalı zamanı onun və ortaya çıxan yan məhsulların tam istifadəsi logistik axınların tənzimlənməsi sisteminin mükəmməlliyindən asılıdır. Məhz həmin mükəmməllik amili sinergetik effekti təmin edə bilir" [15].

Postsosialist və postsovet ölkələrində, onların bazar münasibətlərinə keçidinin ilk onilliyində kənd təsərrüfatı müəssisələri nəzdində fəaliyyət göstərən kiçik emal qurumlarının yaradılması prosesi intensivləşmişdi. Sonrakı dövrdə bu prosesin tempi bir qədər aşağı düşsə də aqrar istehsal müəssisələri nəzdində fəaliyyət göstərən kiçik aqrar emal qurumlarının rəqabət qabiliyyəti və səmərəliliyinin qiymətləndirilməsi məsələləri aktual olaraq qalır.

Hesab edirik ki, sadalanan və digər istiqamətlərdə aparılan tədqiqatlar aqrar emal sənayesi müəssisələrinin səmərəli fəaliyyət və dinamik inkişaf perspektivlərini şərtləndirən imkanların müəyyən edilməsinə və reallaşdırılmasının yollarını əsaslandırmağa imkan verməlidir.

**Aqrar emal sənayesi müəssisələrinin fəaliyyətinin səmərəliliyi**

Aqrar emal müəssisələri, artıq qeyd edildiyi kimi öz fəaliyyətində kənd təsərrüfatının özünəməxsus cəhətlərini nəzərə almaq məcburiyyətindədirlər. Bu xüsusiyyətlər qismində, ilk növbədə kənd təsərrüfatının çoxfunksiyalılığı və istehsalın təmərküzlədirilməsi səviyyəsinin dinamikliyi (o cümlədən, müəssisələrin ölçüləri və konkret ərazidə eyni profilli müəssisələrin sayı, bazar payı) və s. araşdırılır. Aşağıdakı mənbədə "kənd təsərrüfatının və kənd ərazilərinin dayanıqlı inkişafında emal müəssisələrinin rolu araşdırılmaqla, aqrar sahənin çoxfunksiyalılığı və istehsalın təmərküzləşdirilməsi arasında münasibətlər nəzərdən keçirilmişdir" [16, s.107]. Həmin münasibətlərin mürəkkəb xarakterə malik olduğu göstərilməklə, onun araşdırılmasına müxtəlif yanaşmalar şərh edilmişdir. Digər mənbələrdə də hesab edilir ki, "emal, o cümlədən aqrar-emal fəaliyyətinin səmərəli təşkilində təmərküzləşmə (o cümlədən, müəssisələrin ölçüləri) amilinin yerinə və roluna münasibətdə mövqelər çox fərqlidir. Mövcud yanaşmalar istehsal subyektlərinin ölçülərini səmərəlilik meyarları üzrə birmənalı, o cümlədən kəmiyyətcə (hədd və miqyas baxımından) qiymətləndirməyə imkan vermir. Aşağıdakı mənbədə sahə, region və məhsul üzrə aqrar emal məhsulları istehsalının ölçülərinin xarakteristikası üçün əmsallar sistemi hazırlamaq üçün uğurlu cəhd edilmişdir [17, s. 48-56]. Həmin cəhdlər onilliklər ərzində əldə edilmiş təcrübəyə və onun nəticələrinə

əsaslanmaqla aqrar emal subyektlərinin ölçüləri və fəaliyyət səmərəliliyi arasında kəmiyyətcə qiymətləndirilə bilən asılılıqların olduğunu aşkara çıxarmışdır.

Kənd təsərrüfatı və aqrar emal müəssisələrinin istehsal kooperasiyasının inkişafı səviyyəsi aqrar-emal müəssisələrinin fəaliyyətinin və inkişafının əsas xarakteristikalarına təsir edən mühüm amil hesab edilir. Müvafiq mənbələrdə haqqında danışılan iqtisadi subyektlər arasında kooperasiya əlaqələrinin inkişafı imkanlarına münasibətdə aşağıdakılar göstərilir: “kooperasiya - özəl və dövlət sektorları, kənd təsərrüfatı və sənaye sahələri (müəssisələri) arasında iqtisadi, sahə və sahələrarası əlaqələrin, sosial dəstək mexanizminin, klaster sisteminin inkişafı proseslərini müşayiət etməlidir; yalnız klasterlər daxilində iqtisadi və sosial prinsiplərin demokratikliyi təmin olunduqda kooperasiyanın real inkişafına nail olmaq olar” [18].

Əsrlər boyunca bir sıra üstünlüklərə malik olduğunu göstərmiş kooperasiya hərəkatının aqrar istehsalda və aqrar emal müəssisələri ilə əlaqələrdə arzu edilən nəticə verməməsi daha çox müşahidə olunan haldır. Belə vəziyyəti şərtləndirən amillərin tədqiqinə həsr olunan elmi araşdırmalar bu baxımdan diqqətə layiqdir. Kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və satışı müəssisələrinin inteqrasiyası və kooperasiyası proseslərinin səmərəliliyini məhdudlaşdıran amillər kimi – həmin müəssisələrin dayanıqlı olmayan maliyyə durumu, maddi-texniki bazanın köhnəlməsi, istehsalın qeyri-səmərəli təşkili və idarə edilməsi göstərilir” [19].

Kooperasiya hərəkatının təşviqi məqsədi ilə həyata keçirilən nəticəyönümlü tədbirlər kənd yerlərində məşğulluğun səviyyəsini yüksəltməyə və strukturunu əhəmiyyətli dərəcədə yaxşılaşdırmağa müsbət təsir edə bilər. Həmin problemin həllində, yuxarıda qeyd olunan məhdudiyyətlərin aradan qaldırılması və aqrar emal fəaliyyətinin genişləndirilməsi ilə yanaşı aqroturizmin və kənd icmalarının ekoloji maarifləndirilməsi sisteminin inkişafını vacib hesab edənlər də az deyildir. Belə ki, müvafiq mənbələrdə “kənd ərazilərinin və kənd təsərrüfatının dayanıqlı inkişafı və əhalinin daimi məşğulluğu məsələlərinin tədqiqində ətraf mühitin qorunmasına yönəldilən investisiyaları, aqroturizmi, sağlam qidalanma tələblərini, kənd icmalarının ekoloji maarifləndirilməsi amillərini nəzərə alan yanaşmalar formalaşdırılır” [20, s.119].

Aqrar istehsal və emal müəssisələrinin fəaliyyət mühitinin səciyyələndirilməsi zamanı daha çox sayda amilin nəzərə alınması diqqətə layiqdir. Müvafiq araşdırmalarda, hətta yerli xüsusiyyətlərə ayrıca amil kimi baxılması, ilkin yanaşmada müəyyən qeyd-şərtlərlə məqbul sayıla bilər. “Bir neçə Afrika ölkəsi timsalında aqrar istehsal və emal münasibətlərinin formalaşmasında, təsərrüfatdaxili emalın, kontrakt fermerliyinin, torpaq münasibətlərinin, ailə əməyinin və muzdlu əməyin, ümumilikdə kənd yerlərində məşğulluq amillərinin yeri və rolu araşdırılmışdır. Müəlliflər əmtəəlik aqrar və aqrar emal məhsulları istehsalının inkişafında, xüsusilə torpaq münasibətlərinin və iş rejiminin təşəkkülündə yerli xüsusiyyətlərin mühüm rol oynadığı qənaətinə gəlmişlər” [21, s.515-516].

Aqrar emal müəssisələrinin fəaliyyəti və inkişafının tənzimlənməsində bazar özünütənzimləməsi və dövlət tənzimlənməsi sistem əmələ gətirməlidir. Bu sistemin özünəməxsusluğu qida məhsulları istehsalı müəssisələri və digər aqrar emal müəssisələrinin tənzimlənməsində, ümumilikdə sənayenin tənzimlənməsi üçün təklif edilən az-çox dərəcədə universal sayılan mexanizmlər, demək olar ki, istifadə oluna bilmir. Məsələ ondadır ki, aqrar emal fəaliyyətinin xammal bazasının formalaşması digər sənaye sahələrindən kifayət qədər fərqlidir. Həmin bazanın yaranmasında dövlətin iştirakı böyükdür, investisiya iqlimi və marketinqin təşkili və həyata keçirilməsinin iqtisadi və institusional mexanizmi də kifayət dərəcədə özünəməxsusdur [22, s.111-126].

Qida sənayesi müəssisələrinin məhsullarına münasibətdə qiymət siyasətinin prioritetləri, bir qayda olaraq milli ərzaq və qida təhlükəsizliyi meyarlarına əsaslanır. Burada çörək, uşaq qidası və bir sıra digər həyati vacib qida məhsullarının qiyməti subsidiyalaşdırılır, kompensasiyalar təyin edilir, həmin məhsulların istehsalçılarına dövlət büdcəsindən zəmanətli qiymətlər müəyyən edilir və s. Görmək çətin deyildir ki, bu halda emal edilmiş kənd təsərrüfatı məhsullarının nomenklaturası birmənalı olaraq müəyyən edilməlidir [23]. Əks halda, haqqında danışılan subsidiyaların, kompensasiyaların və zəmanətlərin ünvanlılığının ciddi təmin edilməsi problemli ola bilər.

### *Nəticə*

Aqrar istehsal və emal subyektlərinin qarşılıqlı münasibətlərindəki haqqında danışdığımız özünəməxsusluq onlar arasında yaranan ziddiyyətlərin səbəbləri, sektorun strateji əhəmiyyəti, aqrar istehsalın xüsusiyyətləri və ona dövlət himayəsi tədbirlərinin xarakteri, bazarın müvafiq seqmentinin tələbləri və bir sıra digər amillərlə şərtlənir. Aqrar emal müəssisələri tərəfindən kənd təsərrüfatı mənşəli yerli xammaldan istifadəyə üstünlük verilməsi daxili aqrar istehsalın və kənd ərazilərinin dayanıqlı inkişafı baxımından mühüm istiqamət olmalıdır. Aqrar emal müəssisələri və yerli kənd təsərrüfatı məhsulları istehsalçıları arasında ziddiyyətlərin əsasında duran subyektiv xarakterli səbəblərin aradan qaldırılması üçün: kooperasiya, rəqəmsallaşma, səmərəli marketinq kimi amillərdən istifadə etməklə emal müəssisələri tərəfindən inhisarçılıq meyillərinə qarşı kompleks tədbirlər görülməli, yerli istehsal məhsullarının emal üzrə müasir texnoloji xətlərin tələblərinə və digər standartlara cavab verməsi təmin edilməli, innovasiyalara həssaslıq səviyyələri arasında istehsalçıların xeyrinə olmayan fərq azaldılmalıdır.

### ƏDƏBİYYAT

1. Smith V.H., Glauber J. W. Agricultural Insurance in Developed Countries: Where Have We Been and Where Are We Going? Applied Economic Perspectives and Policy, 2012, vol. 34, no. 3, pp. 363-390. doi: 10.1093/aepp /pps029
2. Расторгуев П.В. Совершенствование системы информационного обеспечения и оценки качества продукции АПК в условиях функционирования ЕАЭС, Никоновские чтения-2017. с. 384-386.
3. Gülsen, E. 2012, “Toplam Kalite Yönetimi ve Türkiye’deki Uygulamaları”, Toplum ve Demokrasi, Yıl 6, sayı 13-14, ocak-aralık, -2012, s. 93-109
4. Əliyeva N.R. Azərbaycanın aqrar-emal sahələrində innovasiya fəallığının artırılması problemləri. i.e.d... dis. avtoref. 5312.01. Gəncə, 2022, 50 s.
5. Афонина В.Е. Влияние цифровизации на развитие аграрного сектора экономики // Международный сельскохозяйственный журнал. № 3 (363). 2018, с.15-17.
6. Vikas Shrotriya. Storage and processing of agricultural commodities. August 2018. https://www.researchgate. net/ publication/ 337465499
7. Qurbanova M.M. Bazar iqtisadiyyatı şəraitində kənd təsərrüfatı məhsulları istehsalçıları ilə emal müəssisələri arasında istehsal-iqtisadi əlaqələrin təkmilləşdirilməsi. İqt.e.n... dis.: 08.00.05. Azərb. Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqt-tı və Təşkili İn-tu. B.,1998.182 s.
8. Журавлева О.В. Формирование организационно-экономического механизма устойчивого развития пищевой и перерабатывающей промышленности: Дис. ... к.э.н. 08.00.05 Москва, 2005. 147 с. РГБ ОД, 61:05-8/3258.
9. Quliyeva P.V Aqrar-emal sənayesinin inkişaf problemləri. İqt. üzrə fəls. d-ru... dis.: 08.00.05., Azərb. Dövlət Aqrar Un-ti.B., 2011. 150 s.
10. Шагайда Н.И. Интеграция сельского хозяйства в продовольственные цепочки: Российская практика и международный опыт (экспертная дискуссия)// Экономика сельскохозяйственных и перерабатывающих предприятий. №3, 2015, 17-22.
11. Шагайда Н.И., Потапова А.А., Потапова А.А. Содействие занятости сельского населения: как скорректировать госпрограмму. Экономическое развитие России, Том: 27, №, 2020, 37-40.
12. Chao Huang & Yaling Chen (2021) Agricultural business and product marketing effected by using big data analysis in smart agriculture, Acta Agriculturae Scandinavica, Section B Soil & Plant Science,71:9,980-991, DOI:10.1080/09064710.2021. 1967439
13. Terry Marsden, Jo Banks, Henk Renting, Jan DOUWE VAN DER Ploeg.The Road Towards Sustainable Rural Development: Issues of Theory, Policy and Research Practice. June 2001. Journal of Environmental Policy and Planning 3(2). DOI:10.1002/jepp.77

14. Balayev R.Ə. Rəqəmsal mühitdə iqtisadi münasibətlər: aqrar və urbanizasiya aspektləri. Bakı, MSV nəşr", 2022, 268 s., s. 222.
15. Z.P.Medelyaeva, I.G.Zharkovskaya and I.E.Erofeeva. Logistic approach to the production and processing of agricultural products. Published under licence by IOP Publishing Ltd.IOP Conference Series: Earth and Environmental Science, Volume 422, 6th International Conference on Agriproducts Processing and Farming 17–18 October 2019, Voronezh, Russian Federation.
16. Karol Kociszewski. Theoretical issues connected with sustainable development of agriculture. June 2015. In book: The responsible business. Protection, improvement and development. (pp.107-116). Publisher: Wyd. Ad Rem, s.107.
17. Адашкевич С.П., 2012. "Проблемы экономической оценки концентрации производства в перерабатывающей промышленности Республики Беларусь И способы их разрешения," Экономика и банки, CyberLeninka;Учреждение образования "Полесский государственный университет", issue 2, pages 48-56.
18. Ways of development of agriculture and processing industry enterprises manufacturing cooperation To cite this article: J Sh Tukhtabaev et al 2022 IOP EPFS-2022 IOP Conf. Series: Earth and Environmental Science 1043 (2022) 012024 IOP Publishing doi:10.1088/1755-1315/1043/1/012024
19. Farit Mukhametgaliev, Landysh Sitdikova, Farida Mukhametgalieva and Alina Battalova· ·Development of integration processes in the agricultural sector International Scientific-Practical Conference "Agriculture and Food Security: Technology, Innovation, Markets, Human Resources" (FIES 2020)/ Volume 27, 2020. 25 November 2020. https://doi.org/10.1051/bioconf/20202700116
20. Wiktoria Sobczyk. Sustainable development of rural areas. January 2014. Problemy Ekorozwoju 9(1):119-126, c.119.
21. Ruth Hall. Ian Scoones. Dzodzi Tsikata. Plantations, outgrowers and commercial farming in Africa: agricultural commercialisation and implications for agrarian change. The Journal of Peasant Studies . Volume 44, 2017 -Issue 3. Pages 515-537 | Published online: 16 Mar 2017. https://doi.org/10.1080/03066150.2016.1263187, c.515-516).
22. Абдиев М.Ж. Аграрные отношения и методологические проблемы формирования экономического механизма хозяйствования в АПК // Экономика, предпринимательство и право. 2018. Том 8. № 2, с. 111-126. doi: 10.18334/ epp.8.2.39088
23. What are processed agricultural products?https://ec.europa.eu/growth/sectors/ food-and-drink -industry

***Юсиф Гашам оглы Абаев***
***диссертант Института Экономики НАНА***

## Сущность деятельности по переработке сельскохозяйственной продукции, взаимоотношения субъектов сельскохозяйственного производства и переработки

***Резюме***

Современная деятельность по переработке сельскохозяйственной продукции образует сложную систему, которая многогранна и взаимосвязана. Важную роль в повышении эффективности их деятельности играет улучшение взаимоотношений сельскохозяйственного производства и перерабатывающих предприятий.

**Цель исследования** – уточнить сущность агроперерабатывающей деятельности, выявить причины противоречий в отношениях между субъектами агроперерабатывающей и производственной деятельности.

**Методология исследования** – в процессе исследования использовались методы наблюдения, сравнительного анализа, синтеза, абстрагирования и логического обобщения.

**Прикладная значимость исследования** – полученные результаты могут быть использованы при подготовке и реализации мероприятий по обеспечению эффективной работы предприятий по переработке сельскохозяйственной продукции, совершенствованию взаимоотношений субъектов сельскохозяйственного производства и переработки.

**Результаты исследования** – уточнена сущность системы агропереработки, охарактеризованы основные факторы, определяющие отношения между субъектами агропереработки и производственной деятельности, указаны причины противоречий в этих отношениях.

**Своеобразие и научная новизна исследования** – охарактеризована экономическая сущность процесса переработки сельскохозяйственной продукции, показаны пути устранения противоречий во взаимоотношениях сельскохозяйственного производства и перерабатывающих предприятий.

***Ключевые слова: агроперерабатывающие предприятия, отношения, местное производство, инновации, логистика, цифровизация, регулирование.***

***Yusif Gasham Abayev***
***dissertation student of ANAS Institute of Economics***

## The essence of agricultural processing activity, mutual relations of agricultural production and processing subjects

***Summary***

Modern agricultural processing activity forms a complex system that is multiple and interrelated. Improving the relations of agricultural production and processing enterprises has an important role in the efficiency of their activity.

**The purpose of the research** is to clarify the essence of agro-processing activity, to reveal the reasons for the contradictions in relations between the subjects of agro-processing and production activity.

**Research methodology** - observation, comparative analysis, synthesis, abstraction and logical generalization methods were used in the research process.

**The applied importance of the research** - the obtained results can be used during the preparation and implementation of measures to ensure the efficient operation of agricultural processing enterprises, to improve the mutual relations of agricultural production and processing subjects.

**The results of the research** - the essence of the agro-processing system was clarified, the main factors determining the relations between the subjects of agro-processing and production activities were characterized, and the reasons for the contradictions in those relations were indicated.

**The originality and scientific novelty of the research** - the economic nature of the agricultural processing process is characterized, and the ways of eliminating contradictions in the relations of agricultural production and processing enterprises are shown.

***Key words: agro-processing enterprises, relations, local production, innovation, logistics, digitization, regulation.***